| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 5 718 | 5 433 | 285 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 3 345 | 3 307 | 38 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1 348 | 64 | 1 284 |

2026-cı il mart ayının 1-i vəziyyətinə Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olub ölkənin digər şəhər və rayonlarının məşğulluq mərkəzlərində, həmçinin muxtar respublikanın Dövlət Məşğulluq Agentliyində qeydiyyata alınan işsiz əhalinin sayı 15,3 min nəfər olmuş və onların 59,1 faizini qadınlar təşkil etmişdir.

## Yeni iş yerləri

2025-ci ildə muxtar respublikada 750 yeni iş yeri açılmışdır ki, bu da 2024-cü illə müqayisədə açılmış 2191 iş yerindən 65,8 faiz azdır. Bu dövrdə yaradılmış iş yerlərinin 31,6 faizi dövlət sektorunda, 68,4 faizi isə qeyri-dövlət sektorunda açılmışdır. Yeni açılmış iş yerlərinin 93,6 faizi Naxçıvan şəhərinin, 3,8 faizi Şərur, 0,3 faizi Babək, 0,3 faizi Ordubad, 0,3 faizi Culfa, 1,6 faizi Şahbuz və 0,1 faizi Sədərək rayonlarının payına düşmüşdür.

Yeni açılmış iş yerlərinin 34,7 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 65,3 faizi isə mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

### Yeni iş yerlərinin strukturu



Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 3-ü kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 76-sı emal sənayesi, 1-i su təchizatı; tullantıların təmizlənməsi və emalı, 204-ü tikinti, 174-ü ticarət; nəqliyyat vasitələrinin təmiri, 1-i nəqliyyat və anbar təsərrüfatı, 5-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4-ü informasiya və rabitə, 3-ü maliyyə və sığorta fəaliyyəti, 40-ı peşə, elmi və texniki fəaliyyət, 7-si inzibati və yardımçı xidmətlərin göstərilməsi, 81-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 34-ü təhsil, 95-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 21-i istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət və 1-i digər sahələrdə fəaliyyət sahələrində olmuşdur.

**2025-ci ildə hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü, (faizlə)**




| Seksiya | İqtisadi fəaliyyət növləri |
|---|---|
| A | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| C | Emal sənayesi |
| F | Tikinti |

| Seksiya | İqtisadi fəaliyyət növləri |
|---|---|
| E | Su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| G | Ticarət; nəqliyyat vasitələrinin təmiri |
| H | Nəqliyyat və anbar təsərrüfatı |
| İ | Turistlərin yerləşdirilməsi və ictimai iaşə |
| J | İnformasiya və rabitə |
| K | Maliyyə və sığorta fəaliyyəti |
| M | Peşə, elmi və texniki fəaliyyət |
| N | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| O | Dövlət idarəetməsi və müdafiə; sosial təminat |
| P | Təhsil |
| Q | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| R | İstirahət, əyləncə və sosial xidmətlər |
| S | Digər sahələrdə fəaliyyət |

## Xarici ticarət

2026-cı ilin yanvar-fevral aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 20506,30 min ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 2285,42 min dollarını və ya 11,1 faizini ixrac olunmuş məhsulların, 18220,88 min dollarını və ya 88,9 faizini isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 15935,46 min dollar məbləğində mənfi saldo yaranmışdır. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 21,2 faiz, o cümlədən idxal 15,5 faiz, ixrac isə 98,2 faiz artmışdır.

### Xarici ticarət dövriyyəsi

min ABŞ dolları

| Müqayisə predmeti | 2026-cı ilin yanvar-fevral ayları | 2025-ci ilin yanvar-fevral ayları | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Xarici ticarət dövriyyəsi | 20 506,30 | 16 923,44 | 121,2 |
| İxrac | 2 285,42 | 1 153,17 | 198,2 |
| İdxal | 18 220,88 | 15 770,27 | 115,5 |

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin məlumatına əsasən xarici ticarət dövriyyəsinin 40,0 faizi Türkiyə, 10,7 faizi Braziliya, 9,9 faizi İran, 7,8 faizi Rusiya, 6,2 faizi Gürcüstan, 4,8 faizi Qırğızıstan, 4,6 faizi Çin, 4,3 faizi Koreya, 2,3 faizi Ukrayna, 1,0 faizi Özbəkistan, 8,4 faizi isə digər ölkələrlə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

## 2026-cı ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsində daha çox paya malik olan ölkələr üzrə ticarət dövriyyəsi (min ABŞ dolları)




Muxtar respublikadan ixracın 43,3 faizi Qırğızıstana, 26,9 faizi Gürcüstana, hər biri 7,1 faiz olmaqla Yəmənə və İrana, 3,5 faizi Türkiyəyə, 3,1 faizi Suriya Ərəb Respublikasına, 2,7 faizi İsrailə, 0,9 faizi Amerika Birləşmiş Ştatlarına, 5,4 faizi isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

## 2026-cı ilin yanvar-fevral aylarında ixracda daha çox paya malik olan ölkələr üzrə ixracın dəyəri (min ABŞ dolları)



Muxtar respublikaya idxal olunmuş məhsulların ümumi dəyərinin 44,6 faizi Türkiyənin, 12,0 faizi Braziliyanın, 10,3 faizi İranın, 8,8 faizi Rusiyanın, 5,2 faizi Çinin, 4,8 faizi Koreyanın, 3,6 faizi Gürcüstanın, 2,6 faizi Ukraynanın, 1,1 faizi Özbəkistanın, 1,0 faizi Ekvadorun, 6,0 faizi isə digər ölkələrin payına düşmüşdür.

## 2026-cı ilin yanvar-fevral aylarında idxalda daha çox paya malik olan ölkələr üzrə idxalın dəyəri (min ABŞ dolları)




## 2026-cı ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının xarici ticarət göstəriciləri

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İxrac | İdxal |
|---|---|---|---|
| **CƏMİ** | **20 506,30** | **2 285,42** | **18 220,88** |
| Türkiyə | 8 209,06 | 80,44 | 8 128,62 |
| Braziliya | 2 194,19 | 0,00 | 2 194,19 |
| İran | 2 031,66 | 162,11 | 1 869,55 |
| Rusiya | 1 595,55 | 0,00 | 1 595,55 |
| Gürcüstan | 1 264,44 | 613,96 | 650,48 |

| **Ölkələrin adı** | **Dövriyyə** | **İxrac** | **İdxal** |
|---|---|---|---|
| Qırğızıstan | 989,72 | 989,72 | 0,00 |
| Çin | 949,89 | 0,00 | 949,89 |
| Koreya | 875,96 | 0,00 | 875,96 |
| Ukrayna | 468,43 | 0,00 | 468,43 |
| Özbəkistan | 196,52 | 0,00 | 196,52 |
| Ekvador | 184,93 | 0,00 | 184,93 |
| Yəmən | 163,15 | 163,15 | 0,00 |
| Yunanıstan | 117,15 | 0,00 | 117,15 |
| Almaniya | 86,23 | 0,00 | 86,23 |
| Amerika Birləşmiş Ştatları | 76,63 | 20,99 | 55,64 |
| Latviya | 73,71 | 0,00 | 73,71 |
| Malayziya | 70,86 | 0,00 | 70,86 |
| Suriya Ərəb Respublikası | 70,00 | 70,00 | 0,00 |
| Belarus | 68,44 | 0,00 | 68,44 |
| İndoneziya | 64,43 | 0,00 | 64,43 |
| İsrail | 62,27 | 62,27 | 0,00 |
| Avstriya | 57,08 | 0,00 | 57,08 |
| Şri-lanka | 49,94 | 0,00 | 49,94 |
| Bolqarıstan | 49,62 | 0,00 | 49,62 |
| Misir | 43,72 | 0,00 | 43,72 |
| **Digər ölkələr** | **492,72** | **122,78** | **369,94** |

## Əməkhaqqı

2026-cı ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artaraq 812,1 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 915,0 manat, qeyri-dövlət müəssisələrində isə 646,6 manat olmuşdur.

### 2026-cı ilin yanvar ayında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı

| İqtisadi fəaliyyət növləri | Cəmi, manat | o cümlədən: | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Naxçıvan Muxtar Respublikası üzrə - cəmi** | **812,1** | **915,0** | **646,6** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 551,0 | 522,1 | 562,4 |
| Mədənçıxarma sənayesi | 443,0 | 600,0 | 420,5 |
| Emal sənayesi | 604,5 | 577,4 | 604,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 953,3 | 953,3 | - |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 646,9 | 646,9 | - |
| Tikinti | 574,9 | 758,1 | 526,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 744,7 | 521,9 | 745,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 556,2 | 722,9 | 423,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 645,7 | - | 645,7 |
| İnformasiya və rabitə | 668,0 | 664,4 | 688,2 |
| Maliyyə və sığorta fəaliyyəti | 1 714,3 | 1 381,2 | 1 983,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 699,8 | 634,6 | 838,6 |
| Peşə, elmi və texniki fəaliyyət | 754,2 | 751,7 | 760,8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 527,5 | 576,8 | 447,1 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 1 624,1 | 1 644,8 | 556,1 |

| İqtisadi fəaliyyət növləri | Cəmi, manat | o cümlədən: | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| Təhsil | 752,5 | 756,1 | 345,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 881,6 | 897,8 | 568,0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 791,1 | 790,3 | 865,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 586,4 | 998,1 | 565,8 |

Maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; sosial təminat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində orta aylıq nominal əməkhaqqı muxtar respublika üzrə orta göstəricidən yüksək olmuşdur.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

Azərbaycan Respublikası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin məlumatına görə Naxçıvan Muxtar Respublikası üzrə əhalinin banklardakı əmanətlərinin məbləği bir il öncəyə nisbətən 48,8 faiz artaraq 2026-cı il fevral ayının 1-ə milli valyuta ekvivalentində 39436,0 min manat təşkil etmişdir. Əmanətlərin 93,5 faizi milli, 6,5 faizi xarici valyutada qoyulmuş, milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 49,1 faiz, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 43,8 faiz artmışdır.

## Əhalinin əmanətləri

| | 2026-cı il fevralın 1-i vəziyyətinə, min manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Əhalinin əmanətləri - cəmi** | **39 436,0** | **148,8** |
| o cümlədən<br>milli valyutada | 36 875,1 | 149,1 |
| xarici valyutada | 2 560,9 | 143,8 |

## Əmanətlərin dinamikası, min manat




Fevral ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 Avroya 2,0 (2,0) manata, 100 Türk lirəsinə 3,91 (3,94) manata, 100 Rus rubluna 2,20 (2,18) manata bərabər olmuşdur.

## Hüquqpozmalar

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin məlumatına əsasən 2026-cı ilin yanvar-fevral aylarında muxtar respublikada 75 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 50,7 faiz azdır.

2026-cı ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi və Prokurorluğu üzrə qeydə alınmış 72 cinayət hadisəsinin 13-ü şəxsiyyət əleyhinə olan, 37-i mülkiyyət əleyhinə olan, 3-ü iqtisadi fəaliyyət sahəsində olan, 14-ü ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan və 5-i dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdir. Bundan əlavə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi üzrə 3 cinayət hadisəsi qeydə alınmışdır.

### Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi və Prokurorluğu üzrə qeydə alınmış cinayətlərin strukturu, faizlə



## Demoqrafik vəziyyət

2026-cı ilin əvvəlindən muxtar respublika əhalisinin sayı 15 nəfər artaraq 2026-cı il fevral ayının 1-i vəziyyətinə 472444 nəfər təşkil etmişdir. Əhalinin ümumi sayının 35,5 faizini şəhər, 64,5 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Cari ilin fevral ayının əvvəlinə əhalinin 20,8 faizi Naxçıvan şəhərində, 24,1 faizi Şərur, 16,6 faizi Babək, 10,8 faizi Ordubad, 10,2 faizi Culfa, 7,2 faizi Kəngərli, 5,4 faizi Şahbuz və 4,9 faizi isə Sədərək rayonlarında yaşamışdır.

Muxtar respublika üzrə bir kvadrat kilometrə düşən əhalinin sayı 86 nəfər olmuşdur.

### Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Yanvar ayı üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
| | 2026-cı il | 2025-ci il | artım (+) azalma (-) | 2026-cı il | 2025-ci il | 2026-cı il 2025-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 4 | 77 | -73 | 0,1 | 1,9 | 5,3 |
| doğulanlar | 245 | 292 | -47 | 6,1 | 7,3 | 83,6 |
| ölənlər | 241 | 215 | 26 | 6,0 | 5,4 | 111,1 |
| Nikahlar | 96 | 146 | -50 | 2,4 | 3,6 | 66,7 |
| Boşanmalar | 115 | 73 | 42 | 2,9 | 1,8 | 161,1 |

2026-cı ilin yanvar ayında muxtar respublikada 245 doğulan körpə qeydə alınmış və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 7,3-dən 6,1-ə düşmüşdür. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 51,4 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 48,6 faiz

olmuşdur. Körpələrdən 7-si əkiz doğulmuşdur. 2026-cı ilin yanvar ayında muxtar respublikada 241 ölüm halı qeydə alınmış və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 5,4-dən 6,0 olmuşdur.

**Yanvar ayı üzrə doğulanların**
**və ölənlərin sayı, nəfər**




2026-cı ilin yanvar ayında 96 nikah və 115 boşanma halları qeydə alınmış və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,6-dan 2,4-ə azalmış, boşanmaların sayı isə 1,8-dən 2,9-a artmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **H.F.Bağırov**

# QRAFİKLƏR

## 2026-cı ilin yanvar-fevral aylarında ümumi daxili məhsulun strukturu




## 2026-cı ilin yanvar-fevral aylarında sənayenin strukturu



## Mal-qaranın sayı, baş




## 2026-cı ilin yanvar-fevral aylarında pərakəndə ticarət dövriyyəsi, min manat



## 2026-cı ilin yanvar-fevral aylarında ictimai iaşə dövriyyəsi, min manat




## 2026-cı ilin yanvar-fevral aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manat



## Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı, manat

(2026-cı ilin yanvar ayı)



# METODOLOJİ İZAHATLAR

**Ümumi daxili məhsul (ÜDM)** iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. ÜDM həm istehsal, həm də xidmətlər sahələrində rezident vahidlərin iqtisadi fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlə ölçülür (istehsal üsulu). ÜDM hesabat dövründə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyərindən istehsal prosesinə sərf edilmiş aralıq xərclər istisna edildikdən sonra əldə edilmiş ümumi əlavə dəyərə məhsula və idxala xalis vergilər əlavə edilməklə hesablanır.

**ÜDM-in baza dövrünə nisbətən artım sürəti (fiziki həcm indeksi)** - ÜDM-in baza dövrünün qiymətləri ilə qiymətləndirilmiş cari dövrdəki dəyərinin onun baza dövründəki dəyərinə bölünməsi yolu ilə alınır. ÜDM muxtar respublikada məhsul və xidmətlər istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərə verilən əməkhaqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə desək gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər. Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

**Məhsula və idxala xalis vergilər -** subsidiyalar çıxılmaqla məhsula və idxala vergilərdir.

**Məhsula görə vergi və idxal (ixrac) vergiləri.** Məhsula görə vergilər adətən məhsul və ya xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara əsasən aşağıdakı vergilər aid edilir: -əlavə dəyər vergisi (ƏDV); -aksizlər ; -idxal və ixrac vergiləri, gömrük rüsumları.

**Əhalinin hər nəfərinə düşən ÜDM** - ÜDM-in ümumi həcmini muxtar respublika əhalisinin dövr üzrə orta sayına bölməklə hesablanır.

**Sənaye fəaliyyəti** - "mədənçıxarma sənayesi", "emal sənayesi", "elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" və "su təchizatı, tullantıların təmizlənməsi və emalı" kimi fəaliyyət növləri ilə əhatə olunur.

**Dəyər ifadəsində sənaye məhsulunun həcmi** - əsas fəaliyyəti sənaye olan müəssisələr (hüquqi şəxslər) və onların ayrı-ayrı xüsusiləşdirilmiş bölmələri, hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti göstərən fərdi sahibkarlar tərəfindən, habelə ev təsərrüfatları tərəfindən satılmaq üçün istifadə olunmuş sənaye məhsulunun, sənaye xarakterli işlərin, xidmətlərin dəyəridir. Bura sənaye müəssisəsinin və fərdi sahibkarın bütün bölmələri tərəfindən kənara satılmış, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə verilmiş, özünün əsas fondlarının (vəsaitlərinin) tərkibinə daxil edilmiş, eləcə də əməkhaqqı kimi öz işçilərinə verilmiş məmulat və məhsulların dəyəri, həmçinin hesabat dövründə və ya əvvəllər istehsal olunmasından asılı olmayaraq hesabat dövründə kənara, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə satılmış özünün istehsalı olan yarımfabrikatların dəyəri daxil edilir. Dəyəri hazır məhsulun istehsalçısı tərəfindən ödənilməyən xammal və materiallardan hazırlanan məmulat bu xammal və materialların dəyəri çıxılmaqla faktiki qüvvədə olan buraxılış qiymətləri ilə sənaye məhsulunun dəyərinə daxil edilir. Sənaye müəssisələrində məhsulun dəyəri zavoddaxili dövriyyənin dəyəri nəzərə alınmadan zavod metodu ilə müəyyən edilir. Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir. Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Sənaye istehsalı indeksi** - dəyər ifadəsində sənaye məhsulunun həcminin dəyişməsinin dinamikasını xarakterizə edir. Sənaye statistikasında tətbiq edilən metodologiyaya görə, artım (azalma) sürətləri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "əlavə dəyər" göstəricisi istifadə olunur. Sənaye istehsalı indeksinin hesablanmasında mikro sahibkarlıq subyektləri üzrə məlumatlar yalnız rüblük dövrilikdə nəzərə alınır.

**Əsas kapitala yönəldilmiş investisiyalar** - tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, istehsal olunmayan aktivlərə mülkiyyət hüququnun verilməsinə, qeyri-maddi əsas fondların (layihə-axtarış işləri, proqram təminatı, məlumat bazası, incəsənət və əyləncəli janr əsərlərinin orijinalları və s.) alınmasına və hazırlanmasına, əsas fondların dəyərinin artırılmasına yönəldilən sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir. Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir. Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılır.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** - tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması yaxud bərpası işlərinin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir.

**Məhsul istehsalı sahələrinə yönəldilmiş investisiyalar** - sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və tikinti (mənzil tikintisi istisna olmaqla) fəaliyyət sahələrinə yönəldilmiş investisiyalardır.

**Xidmət sahələrinə yönəldilmiş investisiyalar** - ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə, incəsənət və digər xidmət sahələrinə yönəldilmiş investisiyalardır.

**Yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar** - çoxmənzilli binaların, fərdi yaşayış və bağ evlərinin tikintisinə yönəldilmiş investisiyalardır.

**Kənd təsərrüfatı** - kənd təsərrüfatı bitkilərinin becərilməsi və kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi əsasında yeyinti məhsulları və sənaye üçün xammal mənbəyi olan iqtisadiyyat sahəsidir. Heyvandarlıq və bitkiçilik (əkinçilik) kimi altsahələri vardır.

**Kənd, meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu** dedikdə, bu sahədə (kənd, meşə və balıqçılıq) həm satış, həm də şəxsi istehlak məqsədilə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyəri nəzərdə tutulur. O, bitkiçilik və heyvandarlıqda, ovçuluq, meşəçilik və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulların (xidmətlərin) dəyəri əsasında formalaşır.

**Bitkiçilik və heyvandarlığın ümumi məhsuluna** istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsullarının dəyəri daxil edilir.

**İstehsal olunmuş bitkiçilik məhsulunun dəyərinə** kənd təsərrüfatı bitkiləri məhsullarının - dənli və dənli paxlalı bitkilərin, texniki bitkilərin (yağlı bitkilərin toxumları, şəkər çuğunduru, tütün və s.), kartof, tərəvəz və bostan bitkilərinin, meyvə və giləmeyvənin, digər bitkiçilik məsullarının dəyəri daxil edilir.

**Heyvandarlıqda istehsal olunmuş məhsulların dəyəri** kənd təsərrüfatı heyvanları və quşlarının saxlanması və təsərrüfatdaxili istifadəsi zamanı alınmış xam məhsulların (süd, yumurta, yun və s.) dəyəri, kəsim üçün satılmış mal-qara və

quşların dəyəri, habelə baramaçılıq, arıçılıq və s. heyvanların məhsullarının dəyəri daxil edilir.

**Kənd təsərrüfatı məhsullarının fiziki həcm indeksinin** hesablanması üçün müqayisəli qiymətlər əsasında onların ümumi istehsal həcmi göstəricilərindən istifadə olunur.

**Kənd təsərrüfatı bitkiləri məhsullarının ümumi yığımı** bütün əkin sahələrindən istehsal olunmuş (faktiki yığılmış) məhsulların həcmidir. Ayrı-ayrı bitkilər (kartof, şəkər çuğunduru, günəbaxan və s.) və ya bitki qrupları (dənli və dənli paxlalı bitkilər, tərəvəz, bostan və s.) üzrə hesablanır.

**Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı** - orta hesabla bir hektar yığım sahəsindən əldə edilmiş məhsulun səviyyəsini xarakterizə edir. Bu göstərici, bir qayda olaraq, sentnerlə hesablanır.

**Heyvandarlıq məhsullarının istehsalı** barədə məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə statistik hesabatlara, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə aparılan seçmə müayinə məlumatlarının əsasında müəyyən edilir.

**Ət istehsalına** bütün növ mal-qara və quşların əti, piyi və içalatı daxildir. Məlumatlara həm sənaye üsulu ilə, həm də təsərrüfatdaxili kəsilmiş mal-qara və quşlar daxil edilir.

**Süd istehsalı** inək, camış, qoyun və keçilərdən faktiki süd sağımını xarakterizə edir. Bura satılmış və təsərrüfatlarda istifadə edilmiş, balaların içirdilməsinə və sair məqsədlərə sərf olunmuş südün hamısı daxildir.

**Yumurta istehsalı** cücə istehsalına (inkubasiyaya və s.) istifadə edilənlər də daxil olmaqla, bütün növ ev quşlarından alınmış yumurtanı əks etdirir.

**Yun istehsalı** satılması və təsərrüfatda başqa məqsədlər üçün istifadə edilməsindən asılı olmayaraq, qoyun və keçilərdən qırxılmış bütün yunları, keçi qəzilini, habelə dəvə yununu əhatə edir. Bütün yunlar fiziki çəkidə, qırxımdan sonra yuyulmamış halda uçota alınır.

**Mal-qara və quşların baş sayı** əsas növlər üzrə (iribuynuzlu mal-qara, o cümlədən inək və camışlar, donuz,

qoyun və keçi, at, quş və s.) hesablanır və hesabat dövründən sonrakı ayın 1-nə olan vəziyyətə görə yazılır. Məlumatlar rüblük və illik dövr üzrə hesablanır. Mal-qara və quşların baş sayı statistik uçot və hesabat məlumatlarına əsasən müəyyən edilir.

**Nəqliyyat sektorunda yük daşınması** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Nəqliyyat sektorunda sərnişin daşınması** - qatar, avtobus, taksi və təyyarə vasitəsi ilə daşınmış sərnişinlərin sayını əhatə edir. Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq daşınmış sərnişinlərin hamısı (ödəniş etmədən getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**İnformasiya və rabitə xidmətlərindən əldə edilən gəlir** - informasiya və rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərin ümumi həcmidir. Bu göstərici əhaliyə, idarə, müəssisə və təşkilatlara göstərilmiş xidmətlər müqabilində informasiya və rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Milli hesablar sisteminin tələblərinə uyğun olaraq digər iqtisadi sahələrdə olduğu kimi, informasiya və rabitə müəssisələri üzrə də "informasiya və rabitə xidmətlərindən əldə olunmuş gəlir" göstəricisi formalaşdırılarkən ümumi gəlirin həcmi mal və xidmətlərin satışından əldə edilən vəsaitin müəssisələrin (idarənin, təşkilatın və s.) hesablaşma hesabına daxil olmasından asılı olmayaraq onun yaranması anındakı vəziyyətinə uyğun müəyyən edilir. Yəni bu göstərici hesablanarkən əldə olunan faktiki gəlirin məbləği deyil, hesabat dövründə göstərilən xidmətlərə görə hesablanmış məbləğ əsas götürülür.

**Pərakəndə əmtəə dövriyyəsi** - əsasən əhaliyə onun istifadəsi və ya istehlakı üçün yeni və ya istifadə olunmuş malların emal edilmədən satışını əks etdirir.

**Ticarət dövriyyəsinin müqayisəli qiymətlərlə indeksi** - məhsullar üzrə istehlak qiymətləri indeksi tətbiq edilməklə deflyasiya olunmuş cari göstəricinin baza göstəricisi ilə müqayisə edilməsi əsasında hesablanır. Ticarət dövriyyəsinin fiziki həcm indeksi qiymət dəyişikliklərinin təsiri istisna edilməklə fiziki həcmdəki dəyişikliyin dövriyyəyə təsirini ifadə edir.

**İctimai iaşə dövriyyəsi** - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

**Əhaliyə göstərilən ödənişli xidmətlər** - əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlərin dəyərini əks etdirir.

**İstehlak qiymətləri indeksi (İQİ)** - orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatlı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir. İQİ-dən milli hesablar sistemi göstəricilərinin müəyyənləşdirilməsində, ümumi daxili məhsulun son istifadəsinin ən mühüm komponentlərindən olan ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərdə hesablanmasında, eləcə də əhalinin real gəlirlərinin və digər göstəricilərin hesablanmasında istifadə olunur.

**İqtisadi fəal əhali (işçi qüvvəsi)** - məşğul və işsiz əhalinin ümumi sayıdır.

**İqtisadi qeyri-fəal əhali** - məşğul olmayan, müəyyən dövr ərzində iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslərdir.

**Məşğul əhali** - müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) haqqı ödənilmək və ya qazanc (gəlir) əldə etmək

müqabilində heç olmasa bir saat hər hansı əmək fəaliyyəti ilə məşğul olan 15 və yuxarı yaşda olan şəxslərdir.

**İşsiz əhali** - müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) işi və qazancı (gəliri) olmayan, müayinə həftəsindən əvvəlki son dörd həftə (və ya bir ay) ərzində ödənişli və ya gəlir gətirən hər hansı işlə məşğul olmaq üçün iş axtaran, müayinə həftəsində və ya sonrakı iki həftə ərzində işə başlamağa hazır olan əmək qabiliyyətli yaşda olan şəxslərdir.

**İşsizliyin səviyyəsi** - işsiz əhalinin sayının iqtisadi fəal əhalinin sayında faizlə ölçülən xüsusi çəkisidir.

**İxrac** - muxtar respublikada istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) muxtar respublika sərhədlərindən kənara göndərilməsidir. Muxtar respublikanın öz istehsalı sayılan mallara, həmçinin muxtar respublikaya gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

**İdxal** - muxtar respublikada istehlak etmək və ya təkrar ixrac edilmək üçün muxtar respublika sərhədlərindən kənardan mal gətirilməsidir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

**Orta aylıq nominal əməkhaqqı** - hesablanmış əməkhaqqı fondunun faktiki işləmiş muzdlu işçilərin orta siyahı sayına (sosial və ödənişsiz məzuniyyətdə olan şəxslər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Əhali sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Əhalinin son siyahıyaalınmasının yekun məlumatları əsasında

siyahıyaalmadan sonrakı dövrlər üzrə əhalinin sayı və strukturunda, eləcə də bəzi nisbi göstəricilərdə müvafiq dəqiqləşdirmələr aparılır. Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum və ölüm haqqında aktlarda olan məlumatların statistik cəhətdən hər ay işlənməsi əsasında əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** - təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** - uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** - əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində, müvafiq olaraq ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** - əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Nikah** kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir. Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** - təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır. Boşanma (nikahın pozulması) - birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** - təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
17.03.2026
Naxçıvan AZ7000, Nizami küçəsi 18